# Toxumluq kartof məhsulunda zərərvericilərin aşkarlanmasına dair məlumat

## (14 dekabr 2022)

Nəzarət tədbirləri çərçivəsində “AFKO Təminat” MMC-nin Gürcüstan Respublikasından idxal etdiyi toxumluq kartof məhsulundan Agentlik əməkdaşları tərəfindən nümunələr götürülərək təhlükəsizlik göstəricilərinin müəyyən edilməsi məqsədilə Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun müvafiq laboratoriyasına təqdim edilib. Müayinələr nəticəsində məhsul partiyasında karantin tətbiq edilən zərərvericilər - kartof yumrularında halqavari çürümə (Clavibacter michiganensis subsp. sepedonicus) və kartof güvəsi tırtıl mərhələsində (Phthorimaea operculella Zell.) aşkar edilib.

Aşkar edilmiş faktla bağlı qanunvericiliyə uyğun müvafiq tədbirlər görülüb. İstehlaka yararsız məhsul məişət tullantıları poliqonunda məhv edilib.